# Legislative Update Newsletter

March 19, 2019



Overview of recent changes in the Azerbaijani legislation which could materially impact your business

## Tax and Legal Services

### 1. Presidential Decree on additional measures on resolution of the issue relating to non-performing loans in the Republic of Azerbaijan was adopted

**Document:** Decree of President of the Republic of Azerbaijan "On additional measures regarding the resolution of the issue of non-performing loans of individuals in the Republic of Azerbaijan" ("the Decree")

**Date of signing:** February 28, 2019

**Commentary**: Decree stipulates measures regarding the repayment of loans in foreign currency of individuals whose loan burden increased as a result of devaluation of local currency (AZN) in February and December 2015, as well as restructuring of overdue loans granted in accordance with loan agreements concluded from 1 January 2012 until the execution date of the Decree.

Under the provisions of the Decree regulating the repayment of loans, part of the amount of loans in foreign currency of up to 10,000 (ten thousand) US dollars, which increased in AZN after the devaluation, will be repaid in AZN at the expense of state budget within 3 months, at the exchange rate of the Central Bank of the Republic of Azerbaijan in force at the date of adoption of the Decree. The loans in foreign currency, existing at the date of 21 February 2015, will be paid in the amount of 0.25 AZN (0.15 US dollars) for 1 US dollar, while loans in foreign currency in accordance with loan agreements concluded from 22 February to 21 December 2015 will be paid in the amount of 0.6 AZN (0.35 US dollars) for 1 US dollar. Both calculation methods will be used for repayment of loans in foreign currency existing at 21 February 2015 and at 21 December 2015.

Repayments will be made in AZN, regardless of the currency in which the loan was granted. The amount of repayment to each individual shall not exceed the amount AZN equivalent of 5,000 US dollars. Payments are made, firstly, for repayment of the overdue principal loans of the individuals before banks and the remaining amount is allocated to the disposal of those individuals.

Under the provisions of the Decree regulating restructuring of loans, all loans in the amount of up to 10,000 US dollars or 17,000 AZN overdue more than 360 days of repayment of principal amount and (or) interests, granted in accordance with loan agreements concluded from 1 January 2012 until the signing date of the Decree will be paid to individuals. Hence, these provisions of the Decree apply to loans granted in foreign currency as well as in AZN.

For the restructuring of these loans, below stated measure are recommended to the banks:

- to conclude a new loan agreement for a period of 5 years on preferential terms (with a 1 year grace period and an annual interest rate of 1 percent);
- to write-off all interests and fines (penalties) within 1 month after the execution date of the Decree;
- to withdraw court claim regarding overdue loan and stop the execution of writ of execution within 1 month after the execution date of the Decree;
- undertake other measures to ensure that the individuals whose loans were restructured are relieved of their loan burden.

In accordance with the Decree, the Central Bank of the Republic of Azerbaijan will provide preferential loan with state guarantee in amount of 682 000 000 (six hundred eighty two million) AZN to banks on the basis of the request of the Financial Market Supervision Authority of the Republic of Azerbaijan for restructuring of above-stated non-performing loans of individuals in foreign currency. Additionally, at the expense of the loan allocated in order to prevent deterioration of the foreign exchange of banks, on the basis of their request, they will also be provided with securities worth up to 215 000 000 (two hundred fifteen million) US dollars denominated in foreign currencies with an annual interest rate of 0.5 percent.

Decree applies to loans granted by banks and non-bank credit organizations (credit unions are excluded).

## 2. Minimum monthly wage was increased

**Document:** Decree of the President of the Republic of Azerbaijan on increasing minimum monthly wage and making amendments to the Decree of the President of the Republic of Azerbaijan “On increasing minimum monthly wage” dated 25 December 2017 (“Decree”)

**Date of signing:** February 08, 2019

**Commentary:** Minimum montly wage is determined in the amount of 180 (one hundred and eighty) manats effective from 01 March 2019.

## 3. Law of the Republic of Azerbaijan “On insurance activity” was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law “On insurance activity” of the Republic of Azerbaijan (“the Law”)

**Date of signing:** December 18, 2018

**Commentary:** As per the Law, list of recovery measures (“Recovery measures”) was added to the Law on Insurance activity of the Republic of Azerbaijan. The Recovery measures will serve to recover financial position and lost capital of insurers. Financial markets supervision authority shall apply the Recovery measures in the following cases:

- If it is determined that the existing amount of insurer's total capital is less than the amount of capital required under the legislation;
- If the insurer continuously fails to perform its obligations for a period of three (3) months and if he fails to perform obligation determined in respective warning of financial markets supervision authority within thirty (30) days.

The recovery measures which can be applied by the Financial markets supervision authority in the cases envisaged by the legislation are the following:

- To require the preparation and application of the "recovery plan";
- To require temporary removal and dismissal of the management of insurer;
- To appoint temporary administrator to insurer.

## 4. Civil Procedural Code of the Republic of Azerbaijan was amended

**Document:** Law of the Republic of Azerbaijan "On making amendments to the Civil Procedural Code of the Republic of Azerbaijan" (the "Law")

**Date of signing:** December 28, 2018

**Commentary:** According to the Law, new chapter regulating simplified proceedings ('Simplified proceedings") in small court disputes has been added to the Civil Procedural Code of the Republic of Azerbaijan. After the amendments, the following disputes shall be reviewed through simplified proceedings:

- Civil claims with the amount up to AZN 2,000 (two thousand);
- Economic claims with the amount up to AZN 10,000 (ten thousand) (the 'Minor disputes").

During Simplified proceedings, except for cases provided for in the law, the Minor disputes will be reviewed based on the submitted documents within 30 (thirty) working days from the date of receipt of application by the court without the court hearing and listening to parties' presentations

## 5. Civil Code of the Republic of Azerbaijan was amended

**Document:** Law of the Republic of Azerbaijan "On making amendments to the Civil Code ("Civil Code") of the Republic of Azerbaijan" (the "Law")

**Date of signing:** December 28, 2018

**Commentary:** The Law determines the criteria for significant transactions of limited liability companies ("LLC") and the procedure for execution of such transcations. As per the Law, significant transaction for an LLC is the transaction with the amount of more than 50 (fifty) percent of the amount of net assets of LLC. Significant transactions can be executed only after the respective decision by the general meeting of participants of LLC.

As per another amendment to the Civil Code, general meeting of the participants of LLC shall be plenipotentiary if the participants owning more than 50 (fifty) percent of the shares of LLC attend the general meeting. For information, before the amendments, the issue regarding plenipotentiary of the general meeting was determined according to the charter of LLC.

Furthermore, anybody who intents to acquire 50 (fifty) percent or more shares of LLC, should submit an official offer to all participants of LLC.

## 6. Law of the Republic of Azerbaijan “On state procurement” was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law “On state procurements” of the Republic of Azerbaijan (the “Law”)

**Date of signing:** December 28, 2018

**Commentary:** As per the Law, new terms regulating electronic procurement, planning of procurement, participation of micro, small and medium-sized enterpreneurship entities in state procurement, limitation regarding subcontracts were introduced.

After the amendments, it will be possible to carry out the state procurement and evaluate the proposals of contractors (bidders) automatically through unified internet portal.

Furthermore, the procuring entity shall prepare procurement plan which will contain the information on content, size, quantity of the goods (works, services) that it plans to procure within the next 1 (one) budget year and upload the prepared procurement plan to the unified internet portal. If there is necessity to procure the goods (works, services) which are not included to the procurement plan, then such goods (works, services) can be procured only after the approval by the State Agency of Antimonopoly and Control over Consumer Market of the Republic of Azerbaijan.

According to the Law, the value of subcontracts that the winning contractor may sign for the performance of the procurement contracts can not exceed 50 (fifty) percent of the value of procurement contract.

The Law also introduced mandatory participation of micro, small and medium-sized enterpreneurship entities in state procurement. If the estimated value of the procurement is equal or less than USD 3 million, such procurement shall be carried out only with the participation of micro, small and medium-sized enterpreneurship entities by using open tender procedure through electronic procurement.

## 7. Law “On state registration and state register of legal entities” of the Republic of Azerbaijan was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law “On state registration and state register of legal entities” of the Republic of Azerbaijan (“Law”)

**Date of signing:** December 18, 2018

**Commentary:** Following the amendments, it will be possible to carry out electronic state registration of each amendment to constituent documents, as well as each next amendment to the registered information about limited liability companies (“LLC”). For these purposes, electronic application form in the internet information resources of the Ministry of Taxes of the Republic of Azerbaijan should be filled in, scanned copies of the relevant documents confirming the amendments should be added to the application form and confirmed with an enhanced signature. State registration of the amendments will be performed within 3 (three) working days, unless there are grounds for rejection thereof. On the date when amendments are registered and included to the state registry, extract from the state registry and amended documents of LLC will be sent to electronic cabinet of LLC.

## 8. Law “On medical insurance” of the Republic of Azerbaijan was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law “On medical insurance” of the Republic of Azerbaijan (“Law”)

**Date of signing:** December 28, 2018

**Commentary:** According to the amendments, concept of services package, base and additional part of the services packages, medical supplier, regional medical departments and new chapters regulating voluntary and mandatory medical insurance (“MMI”) were added to the Law “On medical insurance” of the Republic of Azerbaijan.

As per the amendments, medical services within the framework of MMI will be provided to beneficiaries in accordance with the services package at the expense of MMI fund. Services package – is an aggregate of medical services provided to beneficiaries at the expense of MMI’s sources of financing. Base and additional part of the services package will be taken into account when determining the scope of insurers and beneficiaries. Citizens of the Republic of Azerbaijan as well as foreigners and stateless persons residing in the territory of the Republic of Azerbaijan on temporary or permanent basis will benefit from the medical services included to the base part of services package. Insurer in relation to the base part of the services package will be the Ministry of Finance of the Republic of Azerbaijan.

However, limited scope of beneficiaries will benefit from medical services listed in the additional part of services package. Those beneficiaries were divided into categories as per the Law, considering their places of work and accordingly the list of insurers was determined considering these categories.

The State Agency on Mandatory Medical Insurance is determined as the insurer in relation to MMI. Medical services in the framework of MMI are provided by medical suppliers or regional medical departments in accordance with contracts on financing medical services concluded with the State Agency on Mandatory Medical Insurance. Medical suppliers or sectorial medical departments shall provide the State Agency on Mandatory Medical Insurance with a report on medical services provided within the framework of MMI.

Amendments to the Law “On medical insurance” of the Republic of Azerbaijan also determine the amount and rates of insurance premium, its calculation and payment procedure, as well as payment procedure of insurance sum by the insurer.

As per the Law, the State Agency on Mandatory Medical Insurance will keep individual record of insured and beneficiaries.

The above-mentioned amendments will be effective from 01 January 2020.

## 9. Law of the Republic of Azerbaijan “On suspension of inspections of entrepreneurial activities” was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan “On suspension of inspections of entrepreneurial activities” (the “Law”)

**Date of signing:** December 28, 2018

**Commentary:** As per the amendment, it is allowed to carry out customs audit of entrepreneurial activities. After the amendments, customs authorities will be able to perform customs audit in accordance with the customs legislation.

# Our Key Contacts





**Murat Karakas**

Managing Partner

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru

**Farid Isayev**

Head of Tax and Legal Department

T +994 12 404 8910
E fisayev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved.

# Qanunvericiliyə Dair Mühüm Dəyişikliklər

*18 Mart, 2019-cu il*



Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Vergi və Hüquq Xidmətləri

### 1. Azərbaycan Respublikasında problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**Sənəd:** "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 28 fevral 2019-cu il

**Şərh**: Fərman, 2015-ci ilin fevral və dekabr aylarında Azərbaycan manatının devalvasiyası nəticəsində kredit yükü artmış fiziki şəxslərin xarici valyutada olan kreditlərinin ödənilməsi, eləcə də, 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə vaxtı keçmiş kredit borclarının restrukturizasiyası ilə bağlı əlavə tədbirləri tənzimləyir.

Fərmanın borcların ödənilməsi ilə bağlı müddəalarına əsasən, 10 000 (on min) ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi, bu Fərman qüvvəyə mindiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcəkdir. 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə – 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları), 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə isə 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) ödənişlər ediləcəkdir. 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarının ödənilməsinə münasibətdə hər iki qiymətləndirmə metodu istifadə ediləcək.

Kreditin verildiyi valyutadan asılı olmayaraq ödənişlər manatla ediləcək. Bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 000 (beş min) ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır. Ödəniş, ilk növbədə, fiziki şəxslərin banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldiləcək, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına veriləcək.

Fərmanın borcların restrukturizasiya edilməsi ilə bağlı müddəalarına əsasən, fiziki şəxslərə 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi, xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditlər üzrə 360 gündən çox gecikdirilmiş kredit borcları ödəniləckdir. Beləliklə, Fərmanın bu müddəaları xarici valyutada verilmiş kreditlər ilə bərabər manatla da verilmiş kreditlərə tətbiq olunur.

Bu kreditlərin restrukturizasiyası üçün aşağıda göstərilən tədbirlər banklara tövsiyə olunur:

- 5 il müddətinə yeni güzəştli kredit müqaviləsini (illik faiz dərəcəsi 0,1 faiz olmaqla 1 il güzəşt müddəti ilə) bağlamaq;
- Fərman qüvvəyə mindiyi gündən bir ay müddətində hesablanmış faizləri və dəbbə pulunu (cərimə, penya) silmək;
- Fərman qüvvəyə mindiyi gündən bir ay müddətində vaxtı keçmiş kredit borcları ilə bağlı məhkəmələrdə olan iddialardan imtina etmək və icra sənədi üzrə icraata xitam vermək;
- borcları restrukturizasiya olunmuş fiziki şəxslərin borc yükünün yüngülləşdirilməsini təmin edən digər tədbirlər görmək.

Fərmana əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı, qeyd olunan vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında, banklara 682 000 000 (altı yüz səksən iki milyon) manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilməsini təmin edəcək. Həmçinin, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 000 000 (iki yüz on beş milyon) ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin ediləcək.

Fərman banklardan və bank olmayan kredit təşkilatların tərəfindən verilən kreditlərə şamil olunur (kredit ittifaqları istisna edilib).

## 2. Minimum aylıq əməkhaqqı artırıldı

**Sənəd:** Minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ("Sərəncam")

**İmzalanma tarixi:** 08 fevral 2019-cu il

**Şərh:** Sərəncama əsasən minimum aylıq əməkhaqqının məbləği 2019-cu ilin martın 1-dən 180 (bir yüz səksən) manat müəyyən edilib.

## 3. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir

**Sənəd:** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 18 dekabr 2018-ci il

**Şərh:** Qanuna əsasən sığortaçıların maliyyə vəziyyətinin və itirilmiş kapitalının bərpa edilməsi üçün tədbirlərin siyahısı ("Bərpa tədbirləri") və bu tədbirlərin tətbiq olunacağı hallar müəyyən edilmişdir. Belə ki, maliyyə bazarlarına nəzarət orqanı sığortaçılara aşağıdakı hallarda Bərpa tədbirlərini tətbiq edə bilər:

- Sığortaçının məcmu kapitalının məbləğinin onun tələb olunan kapitalının məbləğindən az olması müəyyən edildikdə;
- Sığortaçı öhdəliklərini ardıcıl olaraq üç (3) ay ərzində tam icra etmədikdə və maliyyə bazarlarına nəzarət orqanı tərəfindən verilmiş xəbərdarlıqdan sonra otuz (30) gün ərzində xəbərdarlıqda göstərilən öhdəliyi tam icra etmədikdə.

Maliyyə bazarlarına nəzarət orqanı tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş əsaslar olduqda sığortaçılara tətbiq olunacaq Bərpa tədbirləri aşağıdakılardır:

- Sağlamlaşdırma planının hazırlanması və tətbiqini tələb etmək;
- Sığortaçının rəhbər işçilərinin vəzifələrindən müvəqqəti kənarlaşdırılmasını və azad edilməsini tələb etmək;
- Sığortaçıya müvəqqəti inzibatçı təyin etmək.

## 4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilmişdir

**Sənəd:** "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 28 dekabr 2018-ci il

**Şərh:** Qanuna əsasən Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat adlı fəsil daxil edilmişdir. Belə ki, dəyişiklikdən sonra aşağıdakı işlərə sadələşdirilmiş qaydada ("Sadələşdirilmiş qayda") baxılmasına yol veriləcək:

- qiyməti 2.000 (iki min) manatdan az olan iddialar üzrə mülki işlər;
- qiyməti 10.000 (on min) manatdan az olan iddialar üzrə iqtisadi mübahisələrə dair işlər ("Kiçik işlər").

Sadələşdirilmiş qaydaya əsasən qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, işə müvafiq ərizə məhkəməyə daxil olduğu tarixdən 30 (otuz) iş günü ərzində tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılacaq.

## 5. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilmişdir

**Sənəd:** "Azərbaycan Respublikasının Mülki Məcəlləsinə ("Mülki Məcəllə") dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 28 dekabr 2018-ci il

**Şərh:** Qanunla əqdlərin məhdud məsuliyyətli cəmiyyətlər ("Cəmiyyət") üçün xüsusi əhəmiyyətli əqd hesab edilməsi meyarı və bu əqdlərin bağlanılması qaydası müəyyən edilmişdir. Belə ki, yeni dəyişikliyə əsasən cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdlərin bağlanması üçün iştirakçıların ümumi yığıncağının müvafiq qərarı tələb olunur.

Mülki Məcəlləyə edilmiş digər dəyişikliyə əsasən cəmiyyətin iştirakçılarının ümumi yığıncağının səlahiyyətli hesab edilməsi üçün cəmiyyətin paylarının 50 (əlli) faizindən artıq hissəsinə malik olan iştirakçıların ümumi yığıncaqda iştirakı təmin olunmalıdır. Məlumat üçün bildirək ki, dəyişiklikdən əvvəl cəmiyyətin ümumi yığıncağının səlahiyyətli olub-olmaması məsələsi onun nizamnaməsinə əsasən müəyyən edilirdi.

Daha bir dəyişiklik isə ondan ibarətdir ki, Cəmiyyətin paylarının əlli faizini və daha çox hissəsini almaq istəyən şəxs bu barədə bütün iştirakçılara rəsmi qaydada müvafiq təklif təqdim etməlidir.

## 6. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir

**Sənəd:** “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 28 dekabr 2018-ci il

**Şərh:** Qanuna əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa satınalmaların elektron qaydada həyata keçirilməsi, satınalmaların planlaşdırılması, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakı, subpodrat müqavilələrinə dair məhdudiyyətlər ilə bağlı yeni müddəalar əlavə edilmişdir. Elektron satınalma vasitəsilə dövlət satınalmalarının vahid internet portalı üzərindən həyata keçirilməsi və podratçıların təqdim etdikləri təkliflərin avtomatik qiymətləndirilməsi nəzərdə tutulur.

Edilmiş dəyişikliklərdən sonra satınalan təşkilatlar tərəfindən növbəti il üçün 1 (bir) büdcə ili ərzində satın alınacaq malların (işlərin, xidmətlərin) tərkibi, həcmi, miqdarı və s. barədə məlumatları özündə əks etdirəcək satınalma planı tərtib edilərək vahid internet portalında yerləşdiriləcək. Bu plana daxil edilməyən hər hansı malların (işlərin, xidmətlərin) satın alınmasına təcili tələbat yarandıqda, yalnız bununla bağlı Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin təsdiqi olduqdan sonra həmin malların satın alınması mümkün olacaq.

Qanuna əsasən tenderdə qalib gəlmiş podratçıların satınalma müqavilələrinin icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda bağlaya biləcəyi subpodrat müqavilələrinin dəyəri satınalma müqaviləsinin ümumi məbləğinin əlli (50) faizindən çox olmamalıdır.

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda daha bir yeniliklə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakı məcburi xarakter almışdır. Belə ki, satınalma predmetinin ehtimal olunan qiyməti üç (3) milyon ABŞ dollarının manat ekvivalentində və ya ondan aşağı olan malların (işlərin, xidmətlərin) satın alınması yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçiriləcək.

## 7. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir

**Sənəd:** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 18 dekabr 2018-ci il

**Şərh:** Dəyişikliklərdən sonra məhdud məsuliyyətli cəmiyyətlərin təsis sənədlərində edilən hər bir dəyişikliyin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyinin elektron qaydada dövlət qeydiyyatına alınması mümkün olacaq. Bunun üçün Azərbaycan Respublikası Vergilər Nazirliyinin internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə formasını doldurmaq, müvafiq dəyişiklikləri təsdiq edən sənədlərin skan olunmuş surətlərini ərizəyə əlavə etmək və gücləndirilmiş imza ilə təsdiq etmək lazımdır. Dəyişikliklərin dövlət qeydiyyatından imtina edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsaslar mövcud olmadıqda, dəyişikliklərin dövlət qeydiyyatı 3 (üç) iş günü müddətində həyata keçiriləcək. Dəyişikliklər dövlət qeydiyyatına alındığı və dövlət reyestrinə daxil edildiyi gün dövlət reyestrindən çıxarış və dəyişiklik edilmiş digər sənədlər məhdud məsuliyyətli cəmiyyətin elektron kabinetinə göndəriləcək.

## 8. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir

**Sənəd:** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 28 dekabr 2018-ci il

**Şərh:** Dəyişikliyə əsasən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa xidmətlər zərfi, xidmətlər zərfinin baza və əlavə hissəsi, tibb təchizatçısı kimi yeni anlayışlar, könüllü və icbari tibbi sığorta ilə bağlı münasibətləri tənzimləyən yeni fəsillər əlavə edilmişdir.

Dəyişikliyə əsasən sığortaolunanlara icbari tibbi sığorta üzrə tibbi xidmətlər xidmətlər zərfinə uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına göstəriləcək. Xidmətlər zərfi – icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara göstərilən tibbi xidmətlərin məcmusudur.

İcbari tibbi sığortada sığortalı və sığortaolunanların dairəsinin müəyyən edilməsi zamanı xidmətlər zərfinin baza və əlavə hissəsi nəzərə alınacaq. Belə ki, xidmətlər zərfinin baza hissəsinə daxil olan tibbi xidmətlərdən Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yararlana biləcək, sığortalı qismində isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi çıxış edəcək.

Xidmətlər zərfinin əlavə hissəsinə daxil olan xidmətlərdən faydalana biləcək sığortalolunanların dairəsi məhdudlaşdırılmışdır. Qanuna əsasən bu sığortaolunanlar onların iş yerləri nəzərə alınmaqla kateqoriyalara bölünmüşdür və bu kateqoriyalara müvafiq olaraq sığortalıların dairəsi müəyyən edilmişdir.

İcbari tibbi sığortaya münasibətdə sığortaçı qismində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi çıxış edir. Icbari tibbi sığorta üzrə tibbi xidmətlər İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə bağlanılmış tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqaviləyə əsasən tibb təchizatçısı və ya tibbi ərazi bölməsi tərəfindən göstərilir. Tibb təchizatçısı və ya tibbi ərazi bölməsi icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlər barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə hesabat verəcək.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklər həm də icbari tibbi sığorta üzrə sığorta haqlarının məbləğini və dərəcələrini, onların

hesablanması və ödənilməsi qaydasını, o cümlədən Sığortaçı tərəfindən sığorta ödənişinin ödənilməsi qaydasını əhatə edir.

Qanuna əsasən icbari tibbi sığorta üzrə sığortalı və sığortaolunanların fərdi uçotu aparılacaq.

Qeyd edilən dəyişikliklər 2020-ci il, 1 yanvar tarixində qüvvəyə minəcək.

## 9. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi

**Sənəd:** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 28 dekabr 2018-ci il

**Şərh:** Bu dəyişikliklə sahibkarlıq sahəsində gömrük auditinin aparılmasına icazə verilir. Bundan sonra, gömrük orqanları sahibkarlıq subyektlərində gömrük qanunvericiliyinə uyğun olaraq gömrük auditini həyata keçirə biləcəklər.

# Bizimlə əlaqə





**Murat Karakaş**

İdarəedici Partnyor

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru

**Fərid İsayev**

Vergi və Hüquq
Departamentinin rəhbəri

T +994 12 404 8910
E fisayev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2019 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.